AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

MÜTDA
MƏKTƏBƏQƏDƏR VƏ ÜMUMİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ

birbank

RFO
RESPUBLİKA FƏNN OLİMPİADALARI

RAYON (ŞƏHƏR) MƏRHƏLƏSİ

**Ad** ______________________ **Soyad** ______________________

## 10-cu sinif

# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI

## Azərbaycan bölməsi

- İmtahan müddəti — **150 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- Sualların hər biri **5 balla** qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Rayon (şəhər) mərhələsinin nəticələrini **03.02.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ______________________

**1. Adi dərəcədə olan sifətləri müəyyən edin.**

1. bumbuz 2. kəmhövsələ
3. açıqqəlbli 4. büsbütün
5. kəmşirin 6. açıq-sarı

A) 1, 2, 6 B) 3, 4, 5 C) 1, 3, 6
D) 2, 4, 5 E) 1, 2, 3

**2.** Hansı fikrin əvvəlinə *"bəzi"* sözünü əlavə etmək mümkün ***deyil***?

A) toplu isimlər cəm şəkilçisi qəbul etmir.
B) mürəkkəb cümlələrin növünü yalnız intonasiyaya görə müəyyənləşdirmək mümkündür.
C) modal sözlərdən əvvəl və sonra vergül qoyulmur.
D) nida cümlələrinin sonunda nida işarəsindən istifadə olunmur.
E) cümlələrdə xəbər iştirak etməyə də bilər.

**3. Nümunə ilə bağlı cədvəldəki uyğunluğu müəyyən edin.**

*Deyilənə görə, onun atası məşhur el sənətgarı olmuşdur.*

| | | |
|---|---|---|
| A) | Cümlədə həm sifət, həm də təyin işlənmişdir. | ***doğru*** |
| B) | Ara söz fikrin mənbəyini bildirir. | ***yanlış*** |
| C) | İsmin iki müxtəlif halında olan sözlər var. | ***doğru*** |
| D) | İstinad bildirən qoşma işlənmişdir. | ***yanlış*** |
| E) | İki sözün yazılışında səhvə yol verilmişdir. | ***doğru*** |

**4.** Hansı variantda ***uyğunluq*** var?

| | **Frazeoloji birləşmə** | **Sinonimi** | **Antonimi** |
|---|---|---|---|
| A) | dünyadan köçmək | canını bağışlamaq | dünya görmək |
| B) | xəcalət çəkmək | aybına kor olmaq | ürəyinə yatmaq |
| C) | zəhləsi getmək | xoşu gəlmək | acığı tutmaq |
| D) | dilə gəlmək | səbri tükənmək | hövsələsini basmaq |
| E) | kələyini kəsmək | taqətdən salmaq | gücləndirmək |

**5.** Müasir tibb və əczaçılıq sahəsində bitkilərdən istifadə qədim sivilizasiyaların təcrübələrinə qədər gedib çıxır. Bu gün də dərman bitkiləri anlayışı müasir həyat tərzinin təbiətə qayıdışı ideallaşdırması ilə bütün dünyada məşhurlaşan bir trendin mühüm mövzularından birinə çevrilib. ................................................................... Təbiətin insanlığa bəxş etdiyi bu şəfa mənbələri müasir elm və texnologiyanın töhfələri sayəsində gələcəkdə də ümid mənbəyi olmağı davam etdirəcək.

**Məntiqi ardıcıllıq nəzərə alınaraq boşluğa hansı cümlə yazıla bilər?**

A) Bu gün bir çox yoluxucu xəstəliklərin müalicəsində müasir üsullarla yanaşı, ənənəvi üsullara da üstünlük verilir.
B) Buna görə də dünyada alternativ tibb tətbiqlərinin müasir tibb metodlarını geridə qoyduğu bir həqiqətdir.
C) Keçmişdə olduğu kimi bu gün də müalicə və sağlam həyat tərzi üçün bitki mənbələrindən istifadə edilir.
D) Yeni bitki növlərinin kəşfi ilə alternativ tibb sahəsindəki tərəqqi müasir tibbin müalicə üsullarının şübhə altına alınmasına səbəb olmuşdur.
E) Ənənəvi həyat tərzindən müasir həyata keçiddə insanlar şəfalı bitkiləri yenidən şərh edərək təsnif etmişlər.

**6. Cədvələ və nümunələrə əsasən uyğun fikirləri müəyyən edin.**
1. *Ədalət qütb ulduzu kimi yerində dayanar və geri qalan hər şey onun ətrafında dönər. (Konfutsi)*
2. *Heç səhv etməyən insan heç bir şey etməyən insandır. (Yunus Əmrə)*

| **Birinci cümləyə aid doğru fikirdir.** | **İkinci cümləyə aid yanlış fikirdir.** |
|---|---|
| 1. Həmcins xəbərli sadə cümlədir.<br>2. Həm təsriflənən, həm də təsriflənməyən feil işlənmişdir.<br>3. Yalnız qrammatik mənası olan söz işlənməmişdir. | 4. Üç müxtəlif cümlə üzvü işlənmişdir.<br>5. Yazılışı ilə deyilişi fərqlənən söz yoxdur. |

A) 3, 5 B) 2, 5 C) 1, 5
D) 1, 4 E) 2, 4

**7. Hansı cümlədə feili sifət tərkibi zərflik vəzifəsindədir?**
A) Mən onu həmişə işini vicdanla yerinə yetirən tanımışam.
B) Uşağın bərk qorxduğundan narahat olan ana onu həkimə apardı.
C) Etdiklərimiz edəcəklərimizin göstəricisidir.
D) Qəlbimdə hələ deyilməmiş çox söz var.
E) O bu xəbəri eşidər-eşitməz tez evə doğru qaçdı.

**8.** *Qardaş İskəndərnamə poemasını da oxu deyə dostu üzünü ona tutdu çox gözəl əsərdir.*
**Cümlədə buraxılmış durğu işarələrini müəyyən edin.**
A) iki tire, dırnaqlar, iki vergül
B) üç tire, dırnaqlar, üç vergül
C) üç tire, dırnaqlar, iki vergül
D) bir tire, dırnaqlar, üç vergül
E) iki tire, iki vergül

**9. Cədvələ əsasən "*cəsarətlə*" sözünün fonetik xüsusiyyətləri ilə bağlı doğru fikirləri müəyyən edin.**

| ***Doğrudur*** | ***Yanlışdır*** |
|---|---|
| *1. Yazılışı və tələffüzü arasında iki fərqli məqam var.* | *4. Sözdə yalnız açıq saitlər işlənmişdir.* |
| *2. Vurğusu son hecanın üzərinə düşür.* | *5. Ahəng qanunu pozulmamışdur.* |
| *3. Sözdə qarşılığı olmayan iki samit işlənmişdir.* | *6. İki hecası samitlə bitir.* |

A) 2, 3, 6 B) 1, 4, 5
C) 3, 4, 6 D) 1, 2, 3
E) 1, 5, 6

**10. Tabeli mürəkkəb cümlələri göstərin.**
1. Vasif yaxşı oxuyurdu, ancaq imtahanda zəif nəticə göstərirdi.
2. Vasif yaxşı oxumasına baxmayaraq, imtahanda zəif nəticə göstərirdi.
3. Vasif yaxşı oxusa da, imtahanda zəif nəticə göstərirdi.
4. Vasif yaxşı oxuyurdu, ancaq o, imtahanda zəif nəticə göstərirdi.
5. Doğrudur, Vasif yaxşı oxuyurdu, ancaq imtahanda zəif nəticə göstərirdi.
A) 1, 2, 4 B) yalnız 3, 5
C) 1, 3, 5 D) yalnız 2, 4
E) 2, 3

**11.** Sadə cümlənin şəxsə görə növlərinə aid ***uyğunsuzluğu*** müəyyən edin.
A) Bacadan evin ortasına düşən ay işığı get-gedə azalırdı – *müəyyən şəxsli cümlə*
B) Belə şeyləri uşaqlıqdan öyrənərlər – *ümumi şəxsli cümlə*
C) Eşitdiyi xəbərin ciddiliyini anlayınca Məmmədin rəngi qaçdı – *şəxssiz cümlə*
D) Könlündən keçənləri bilənlər onu məsxərəyə qoymazdılarmı? – *qeyri-müəyyən şəxsli cümlə*
E) Filmin ən həyəcanlı yerlərindən birində işıqlar söndü – *müəyyən şəxsli cümlə*

**12. Hansı sözün orfoepiyasında üç fərqli məqam var?**
A) sənətkarlıq
B) fırlanma
C) istedad
D) çətinliklə
E) qətiyyətlə

**13. "*Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy*"la bağlı cədvəldəki uyğunluğu müəyyən edin.**
A) 1-b; 2-a
B) 1-a; 2-b
C) 1-c; 2-b
D) 1-b; 2-c
E) 1-a; 2-c

| Səbəb | Nəticə |
|---|---|
| *1. Qazan bəy ehtiyat edir ki, ölümündən sonra oğlu Uruza taxt-tac verməzlər.* | *a. Oğuz xalqına vəsiyyət edir.*<br>*b. Qurduğu məclisdə ağlayır.*<br>*c. Düşmən üzərinə hücuma keçir.* |
| *a. Qazan bəy oğlunun döyüş meydanından qaçdığını güman edir.*<br>*b. Qazan bəy döyüşdə gözünü itirir.*<br>*c. Döyüşə girən Uruz qorxaqlıq edir.* | *2. Qazan döyüş yoldaşlarına oğlunu qılıncla altı parça etmələrini söyləyir.* |

**14. Nümunədəki fərqləndirilmiş hissə ilə bağlı fikirləri davam etdirin.**
***Sərv qəddi, gül camalı*** *tamaşa,*
*Şəhla göz yaraşır hilali qaşa.*
1. Bədii təsvir vasitəsi işlənmişdir.
2. ..................................
3. ...................................
A) 2. Epitetdir.
3. İki əşya arasında oxşar əlamət tapmaq yolu ilə yaranmışdır.
B) 2. Təşbehdir.
3. Bənzəyənlə bənzədilən arasındakı müştərək sifət ifadə olunmuşdur.
C) 2. Metafordur.
3. Köçürmək mənası ifadəsini tapmışdır.
D) 2. Epitetdir.
3. Fikri ifadə edən sözə qüvvətləndirici - təyinedici söz artırılmışdır.
E) 2. Metafordur.
3. Bənzəyən atılmışdır, bənzədilən bənzəyənin yerini tutmuşdur.

**15.** Ş.İ.Xətayinin "Dəhnamə" poeması ilə bağlı uyğunluq hansı bənddə ***pozulmuşdur***?

| | |
|---|---|
| A) Bülbül oxudu sifati-hicran,<br>Dəryada dür oldu əbri-neysan... | "Bahariyyə" |
| B) Yar zülfü təki günüm qarardı,<br>Yar ağzı kimi yerim darardı... | "Aşiqin əhvalı" |
| C) Bu vəch ilə halım etdim elam,<br>Şəhlərdən olur gədaya ənam. | "Səbanın Məşuqənin yanına getməsi" |
| D) Yaş etdi ümid evini parə,<br>Sögdüm yenə bəxti-nabəkarə... | "Aşiqin əhvalı" |
| E) Yırtdı əlidən alıb kitabın,<br>Saydı yüzinə üyubi babın. | "Məşuqənin bağbanı və Səbanı danlaması" |

**16.** Şifahi xalq ədəbiyyatı ilə əlaqəli fikirlərdən ***yanlış*** olanı seçin.
A) Əfsanələrin özünəməxsus girişi və sonluğu olmur.
B) Nağılların sonu xeyirin qələbəsi ilə bitir.
C) Holavarlar heyvandarlıqla əlaqəli nəğmələrdir.
D) Təmsil epik növün janrıdır.
E) Lirik növdə tərənnümə rast gəlmək mümkündür.

**17.** Nümunə ilə bağlı ***yanlış*** fikri seçin.

*Şimşək kimi buludları qovaraq*
*Verdim parlaq çiçəklərə könlümü.*
*Günəş kimi qaranlığı boğaraq,*
*Verdim odlu diləklərə könlümü.*
*(M.Müşfiq)*

A) Çarpaz qafiyələnmişdir.
B) Rədif işlənməmişdir.
C) Sonuncu misrada epitet işlənib.
D) 4-4-3 bölgüsündədir.
E) Şeir vahidi bənddir.

**18. N.Gəncəvinin "*İskəndərnamə*" poeması ilə bağlı doğru fikri göstərin.**
A) Nüşabənin sarayında yalnız kişilər xidmətçilik edir.
B) Əsərdə Pələngər İskəndərin əli ilə cəzalandırılır.
C) Nüşabə İskəndərdən qorxduğu üçün onu tanıdığını etiraf etmir.
D) Müəllif İskəndəri əsər boyu qüsursuz təsvir edir.
E) Feyləqus öz ölkəsini qədimdən gələn adətlərlə idarə edərək yeni qanunlar verməkdən çəkinir.

**19. *Yanlış*** fikri seçin.
A) Mövzu tarixi kateqoriyadır.
B) Şeirdə ahəngdarlıq yaradan vasitələrdən biri də vəzndir – ölçüdür.
C) Forma dəyişkəndir, məzmun sabit.
D) Süjet və kompozisiya əlaqəli anlayışlardır.
E) Aşıq yaradıcılığı müəllifli ədəbiyyatdır.

**20. Nöqtələrin yerinə uyğun gələn fikir hansı bənddə göstərilmişdir?**

| **İ.Nəsimi təriqət şeirlərində** | |
|---|---|
| ............ | Sufiyanə və hürufi fikirlərini təbliğ etmişdir. |

A) İnsan həm bəşəri, həm də ilahi keyfiyyətlərə malikdir.
B) Əsas qəhrəman real gerçəkliyin yetirməsidir.
C) Yalnız məhəbbətdən söhbət açmışdır.
D) Obrazlılıqdan istifadə etməmişdir.
E) Xatirələrindən bəhs etmişdir.